# BİR ÖMRÜN RƏNGARƏNG DÜNYASI

***Hər dəfə yeni bir mövzuya müraciət edəndə ağır yükün altına girdiyimi, bəzən də, dibi görünməyən dərin bir dəryaya baş vurduğumu hiss edirəm. Ona görə də yazacağım mövzudan asılı olaraq düşünürəm, qələmə aldığım bu əsərin lazımınca öhdəsindən gələ biləcəyəmmi? Qələmimin gücünə əmin olduqdan sonra işə başlayıram.***



Bu dəfə ki əsərin qəhrəmanı Azərbaycan Respublikasının və SSRİ Xalq artisti, bəstəkar, «Heydər Əliyev» ordenini şərəflə daşıyan ictimai və siyasi xadim, müğənni, Azərbaycan estrada musiqisinin təbliğində və inkişafında böyük rolu olan Polad Bülbüloğludur.

O, hələ 10 yaşındaykən musiqi dünyasında öz sözünü çoxdan demiş — SSRİ xalq artisti olan atası, dahi Bülbülü müşayiət edərək özünü sınadı və bu çətin sınaqdan üzü ağ, uğurla çıxdı. Dahi sənətkar, xalq artisti Bülbülün evində artıq gələcəyi parlaq görünən, Azərbaycan mədəniyyətinə sonsuz töhfələr verməyə qadir olan bir gənc böyüyürdü.

İllər sürətlə keçirdi. Bütün yayı, fürsət tapanda isə payız, qış, bahar aylarında da doğma yurdu Şuşaya tələsən Bülbül, ailəsi ilə bərabər öz evində istirahət edərdi. Həmin vaxtlar gənc oğlan dəyişən fəsillərin ahəngindən xüsusi zövq alar, saatlarla xəyala dalardı. Yeniyetmə gənc öz qərarını beynində qətiləşdirmişdir — musiqiçi olacaq! Oğlunda istedadı, musiqiyə olan potensialı görən Bülbül onu sığallayırmış kimi, əlini başına çəkərək xeyir-duasını vermişdir.

Bu elə-belə sıradan biri xeyirdua deyildi... Ona xeyir-dua verən atası olmaqdan başqa, həm də böyük opera müğənnisi, musiqi folkloru tədqiqatçısı, Azərbaycanın peşəkar vokal sənətinin banisi, SSRİ xalq artisti Bülbül idi.

1957-ci il 12 yaşlı Poladın həyatında dönüş nöqtəsi oldu. Həmin il böyük təntənə ilə Bülbülün 60 illik yubileyi və yaradıcılığının 40 illiyi keçirilirdi. Dostları Bülbülə böyük bir sürpriz hazırlamışdılar. Təntənəli yubiley gecəsində, gözlənilmədən səhnəyə Poladı çıxartdılar. Polad ilk dəfə Azərbaycan opera və balet teatrının səhnəsində «Evləri var xana-xana» Azərbaycan xalq mahnısını böyük məharətlə ifa etdi.

İfa o qədər ruhları vəcdə gətirdi ki, tamaşaçılar onu ayaqüstə sürəkli alqışlar təntənəsilə səhnədən getməyə qoymadılar. Uğurlu ifa Poladda özünə güvəni daha da artırdı.

1959-cu ildə atasının xəstəliyi daha çox irəlilədi. Səsinin keçid dövrü olmasına baxmayaraq, Polad tez bir zamanda atasının repertuarından iyirmidən çox əsər fortepianoda çalaraq ifa etməyi öyrəndi. Artıq gənc ifaçı xalq arasında Polad Bülbüloğlu kimi tanınıb və sevilirdi. O, zəngin repertuarı ilə ölkəmizin şəhər və rayonlarına qastrol səfərləri edirdi. Hər dəfə də ifaları gurultulu alqışlarla qarşılanırdı.

Təəssüf, min dəfə təəssüf ki, arzusunun həyata keçməsinin bir addımlığında Polad atasını — Azərbaycan isə böyük sənətkarın itirdi. Bu böyük itki Poladı nə qədər sarsıtsa da, ruhdan salmadı. O, atasının adına layiq övlad olmaq üçün daha əzmlə öz üzərində çalışdı və zəhməti hədər getmədi.

Hələ uşaqkən yaradıcılıq həyatına qədəm qoyan Polad Bülbüloğlu ömrünün bir gününü belə yaradıcılığından qalmayıb. O, gənc yaşlarından SSRİ-nin ən populyar və seçilən müğənnilərindən biri oldu.

Polad Bülbüloğlunun yaradıcılığı çoxşaxəli və rəngarəngdir: bura simfonik və kamera instrumental əsərlər, estrada və vokal silsiləsindən musiqilər daxildir. Lakin bəstəkarın yaradıcılığının mühüm və böyük hissəsini mahnı janrı təşkil edir.

Polad Bülbüloğlunun mahnıları keçən əsrin ən məşhur estrada müğənnilərinin repertuarına daxil idi. Bəstəkarın «Gəl, ey səhər», «Şən Azərbaycan», «Dolalay», «Dilin can incidəndir», Durnalar»,»Azərbaycan odlar yurdum mənim» və s.mahnıları bu gün də sevilir və ifa olunmaqdadır.

Polad Bülbüloğlunun həyat və yaradıcılığı o qədər zəngindir ki, belə ömür yolu keçmiş bir sənətkar haqqında yazmaq o qədər də asan deyil. Bu yerdə Poladın anası — hüquqşünas, «Şöhrət» ordenli, Prezident təqaüdçüsü, SSRİ xalq artisti, Stalin mükafatçısı, ölməz sənətkar Bülbülün xatirəsinə həsr etdiyi 7 kitab müəllifi, Bülbül Memorial Ev Muzeyinin direktoru Adelya xanımın oğlu Polad haqqında xatirələrinə baş vururam və Polad haqqında çox maraqlı, hər kəsə xas olmayan keyfiyyətlərlə tanış oluram. Öyrənirəm ki, atasının zəngin, çoxşaxəli həyat tərzinin Poladın yaradıcılığına, incəsənət aləminə atılmasına çox böyük təsiri olmuşdur.

Ancaq bununla yanaşı, İlahidən gələn, özünün içindən qaynaqlanan bir vergi, özünəməxsus xüsusiyyətləri hələ uşaqlığından özünü göstərirmiş. O, özünü böyüklər kimi aparmağı sevir, özündə lider xüsusiyyətlərini formalaşdırırdı. Oxumağı sevirdi, musiqi dinləməkdən zövq alırdı. Polad 11 illik musiqi məktəbində professor K.Səfərəliyevin fortepiano sinfində oxuyurdu. İrsi olaraq atasından keçmə musiqi qabiliyyəti və mükəmməl yaddaşı onu yaşıdlarından fərqləndirirdi. Polad dərsi o qədər tez və asan mənimsəyirdi ki, müəllimlər onu «zəka küpü» adlandırırdılar.



O, məktəbdəki çoxsaylı tədbirlərdə olurdu. Təşkilatçılıq, təbliğat işlərini olduqca yüksək səviyyədə bacarırdı. Ətrafında daima çoxlu dostları toplanır, maraqlı məsələləri müzakirə edirdilər. Poladın təşkilatçılıq qabiliyyətini görən rəhbərlik onu məktəbin komsomol təşkilatına katib seçdilər.

1962-ci ildə Polad Bülbüloğlu komsomolun XIV qurultayına nümayəndə seçildi. Onun Moskvaya olan bu səfəri həyatının dönüş nöqtəsi oldu. O, XIV qurultaya həsr olunmuş konsertdə özünün ilk Moskva haqqında mahnısını ifa etdi. Zal onu böyük sevgiylə qarşıladı və hərarətli alqışlarla yola saldı. O gecə saat 12:00-da «Xəbərlər» proqramında gənc bəstəkar və ifaçı Polad Bülbüloğlu kimi təqdim edildi. Poladın bu mahnısı keçmiş SSRİ məkanındakı bütün radiolarında səsləndi. Bu təqdimatdan sonra artıq hamı bu istedadlı gənci Polad Bülbüloğlu kimi tanıdı.

Moskvadakı uğurlu çıxışından ilhamlanan Polad tez bir zamanda ardıcıl olaraq dinləyicilər arasında sevilən, populyarlıq qazanan mahnılar bəstələyib və ifa etdi. 11 illik musiqi məktəbini müvəffəqiyyətlə bitirən Polad Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil oldu və böyük bəstəkar Qara Qarayevin sinfində təhsilinə başladı.

Polad artıq ikinci kursda oxuyurdu. O, bir gün atasının iş masası üzərində «Bayatılar» kitabını gördü. Kitabı götürüb vərəqlədikcə atasının qeydlərini oxudu və bildiki, atası bunları oxumaq istəyib, arzusu yarıda qalıb. Atasının xatirəsinə hədiyyə olaraq, onun seçdiyi bayatıları bəstələmək istəyir və öz fikrini müəllliminə bildirir. Q.Qarayev etiraz etmir və deyir ki, əgər təhsilinə, dərsinə mane olmayacaqsa bəstələsin. Bəstələri çox uğurlu alınır. Mahnıların notlarında həm kövrəklik, həm intizar, həm məhəbbət ruhunu dilləndirir. Polad Bülbüloğlu bunu müəlliminə göstərəndə o, çox bəyənir. Amma yenə də fikrindən dönmür. Tələbəsinin ancaq dərsilə məşğul olmasını istəyir.

Polada böyük əsərlər bəstələmək üçün çoxlu təkliflər gəlir. «İstintaq davam edir» filminin musiqisinin Polad Bülbüloğlu yazması üçün A.Atakişiyev onların evinə gəlir və xahiş edir ki, filmin musiqisini o yazsın. Çox çətinliklə Q.Qarayevin razılığını alırlar və Polad Bülbüloğlu filmin musiqisini yazır.

Bu yerdə mən keçid etmək istəyirəm, Polad Bülbüloğlunun seçdiyi mahnıların söz mənbəyinə. Təbii ki, əgər onun hər bir əsərinin köhnəlməməsinə nəzər salsaq görərik ki,əsərlərinə müraciət etdiyi şairlər də ədəbiyyatda öz sözünü demiş söz ustalarıdır. Polad Bülbüloğlu O.Hacıqasımovla işləməyi çox sevdiyi üçün,onun şeirlərindən ibarət silsilə əsərlər yaratdı. Onun hamının sevdiyi, şən, oynaq, yumor dolu «DOLALAY» mahnısı Rəsul Həmzətovun şeirlərindən ilhama gəlməsi nəticəsində yarandı.

Polad Bülbüloğlu çox tez şöhrət qazandı. O, Azərbaycan şairlərinin şeirlərinə çox mahnılar bəstələyir və bütün mahnıları sevilə-sevilə gənclərin könül nəğməsinə çevrilir. Onun ən çox şeirlərini müraciət etdiyi şairlər — Nəbi Xəzri, Rəsul Rza, Süleyman Rüstəm, İslam Səfərli, Tofiq Mütəllibov, Fikrət Qoca, Məstan Əliyev, Cabir Novruzdur. Onun mahnılarını tanınmış Azərbaycan müğənniləri Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Rauf Atakişiyev, Elmira Rəhimova, İslam Rzayev, Mobil Əhmədov və başqaları böyük şövq ilə ifa edirdilər.

Polad Bülbüloğlu öz yaradıcılığında rus şairlərinin də şeirlərinə yer verir. O, Ümumittifaq «Mahnı» Telefestivalının laureatı olub. Onun mahnılarını təkcə Azərbaycan müğənniləri deyil, dünyanın tanınmış sənətçiləri də oxuyub — estradanın ulduzları İosif Kobzon, Lev Leşşenko, Lyudmila Sençina, Edita Pyexa. Leonid Smetannikov, Valeri Obodzinski, Vaxtanq Kikabidze, Mansur Daşmatov, Roza Rımbayeva, Zaur Tutov, «Qaya» kimi tanınmış ansambl.

Onu gənc yaşlarından dünyanın dörd bucağında alqışlayırdılar. Paris, Bağdad, Leypsiq, Budapeşt, Çikaqo, Lissabon, Varşava, Berlin, Praqa, Sofiya, İstanbul, Mexiko, Helsinki, Havana, İzmir, Sapporo, Nyu-York, Brüssel, Malta, Neapol, Limassol, Vankuver, Sinqapur və başqa tanınmış şəhərlərin ən böyük zallarında Polad Bülbüloğlunu tamaşaçılar uzun müddət səhnədən getməyinə imkan verməyiblər.

O, Sovet İttifaqının göndərişi ilə getsə də, səhnəyə Azərbaycanın oğlu kimi çıxırdı. Adı çəkilər-çəkilməz zalda alqış səsləri yüksəlir, onların sədası zalın divarlarında əks-səda verirdi.

Polad Bülbüloğlu bunlarla kifayətlənmir, özünü filmlərdə də sınamaq arzusunda olur və o arzusunu da uğurla həyata keçirir. O, sevilə-sevilə izlənilən «Qorxma, mən səninləyəm» filmində çəkilir. Polad Bülbüloğlu çəkildiyi filmlərdə kaskadyorla bərabər inadından dönmür, cəsarətlə özünü riskə atırdı.

Polad Bülbüloğlunun sonsuz zəhməti, çəkdiyi əziyyətlər diqqətdən kənarda qalmadı. 1982-ci ildə Polad Bülbüloğlu dövlət tərəfindən Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülür.

O, 1973-cü ildə yaradıcılıq fəaliyyəti ilə bağlı Moskva şəhərinə köçür və Moskvada yaşadığı müddətdə, 1980-cı ildən 1987-ci ilə qədər «Aşıq» vokal-instrumental ansamblına rəhbərlik edir.

(Sonu səh. 9)

# BİR ÖMRÜN RƏNGARƏNG DÜNYASI



(Sonu. Əvvəli səh. 8)

O, zəngin konsert proqramı ilə ardıcıl olaraq xarici ölkələrdə səfərlərdə olur.

1987-ci ildə Polad Bülbüloğlu Vətənə — Bakıya dönür və elə həmin ildə də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının rəhbəri olur. 1988-ci ildə isə Polad Bülbüloğlu Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsinə təyin edilir. Onun təşkilatçılıq qabiliyyəti bu vəzifədə dəbariz şəkildə özünü göstərir. Polad Bülbüloğlunun nazir vəzifəsində işlədiyi dövrü öyrənmək üçün, onunla birlikdə işləmiş və Polad Bülbüloğlunun göstərişi ilə ölkənin kitabxana-informasiya sahəsində uğurla rəhbərlik etmiş tarixçi-alim, Fəxri mədəniyyət işçisi, Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Lətifə xanım Məmmədovaya müraciət etdim. Və o, həmin dövrdə nazirin gördüyü böyük işləri, mədəniyyətimizə gətirdiyi yenilikləri mənə incəliklərinə qədər danışdı. Öyrəndim ki, Polad Bülbüloğlu nazir işlədiyi 17 il ərzində nəzərəçarpacaq qədər mədəniyyət və incəsənətin, milli mədəniyyətimizin bərpasına və inkişafına, onun dünyada təbliğinə böyük və əvəzolunmaz töhfələr verdi. O,Azərbaycanın müxtəlif ölkələrlə mədəni əlaqələrinin möhkəmlənməsi üçün bütün bacarığını qoyub, mədəniyyətimizə yeniliklər gətirmək üçün yeni layihələr üzərində çalışıb. Mədəniyyət Nazirliyi Avropa Şurası ilə birgə mədəniyyət siyasəti sahəsində vacib layihələr işləmişdir. O, əhəmiyyətli təkliflər irəli sürüb və bu təkliflər də anlaşıqlı qarşılanıb. Yəni təklif olunan məsələlər qəbul olunub. Mədəniyyət Nazirliyi YUNESKO və Avropa Şurası ilə əməkdaşlıq edib. Azərbaycan Avropa Şurasının bərabər hüquqlu üzvü olur. 2002-ci ildə Strasburqda «Azərbaycanın mədəniyyət siyasəti» haqqında Milli məruzəsinin təqdimatı uğurla baş tutdu. Bu məruzə Azərbaycan Respublikasının mədəniyyət naziri, professor Polad Bülbüloğlunun rəhbərliyi ilə Azərbaycan və Avropanın ekspertləri tərəfindən hazırlanmışdı.

1994-cü ildə Polad Bülbüloğlu Beynəlxalq TÜRKSOY təşkilatının yaradılmasının təşəbbüskarı olur və ona rəhbərlik etməyə başlayır. Bu təşkilat Türk dünyasının dostluğunun möhkəmlənməsinə, eyni zamanda türk mədəniyyəti və incəsənətinin inkişafına xidmət edir.

Polad Bülbüloğlunun şəxsiyyətinə və özünə böyük inam və etimad göstərərək 2002-ci ildə onu MDB ölkələrinin mədəniyyət nazirlərinin Mədəni Əməkdaşlıq Şurasının sədri seçirlər.

Bir nazir kimi o, respublikanın ən ucqar rayonlarında, kəndlərində kitabxana sisteminə diqqət edir. Kitabxana fondlarını yeni nəşr olunan kitablarla zənginləşdirməklə yanaşı kitabxanalarda oxu zallarının fəaliyyətinin təkmilləşdirilməsi üçün böyük işlər görür. Ləğv olunmuş sovxoz və kolxoz binalarının dağılmasına yol vermədən, onların mədəniyyət evi, musiqi məktəbi, kitabxanalar kimi istifadə olunmasını təklif edir və mədəniyyətimizin inkişafı üçün bu fikrin dəyərli olduğundan onunla hər kəs razılaşır. Həmin dövrdə kitabxanaların saytları yaradılır, ilk Elektron kataloq və Elektron kitabxanalar fəaliyyətə başlayır, kitabxana sistemində yeni texnologiyalar uğurla tətbiq olunur. Nazir muzey, mədəniyyət evləri, mədəniyyət və istirahət parklarının, teatrların inkişafına, tarixi abidələrin qorunmasına böyük diqqət yetirib. Gənc istedadlar da daima onun diqqəti ilə inkişaf edib. Məhz bunun üçün o Uşaq Filarmoniyasını yaratdı. Xalq kollektivlərinin işi dünyada və ölkəmizdə nümayiş olunub.

Polad Bülbüloğlunun novatorluq keyfiyyətləri bitib-tükənmək bilmirdi. Cıdır düzündə yaz aylarında gördüyü aşıb-daşan, rüzgar əsəndə dərya kimi dalğalanan xarıbülbül çiçəklərinin bülbüllər kimi güldən-gülə qonaraq şən nəğmə oxuduqlarını seyr edirdi. Elə oradaca onun ağlına işıqlı bir fikir gəlir: hər il may ayında Şuşada Xarıbülbül Musiqi Festivalını təşkil etmək. Və bu fikrini həyata keçirir. 1989-cu ildən başlayaraq hər il may ayında Şuşada — Cıdır düzündə Xarıbülbül Festivalı keçirilməyə başlayır. Festival ABŞ, Yaponiya, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanistan kimi ölkələrin və keçmiş SSRİ respublikalarının iştirakı ilə keçirilib. Sonuncu festival 1992-ci ilin may ayında keçirilmişdir.

Ulu Öndərimizin tövsiyəsi ilə Polad Bülbüloğlu 2005-ci ildə «Dədə Qorqud» dastanının motivləri əsasında «Eşq və ölüm» baletinin musiqisini bəstələyir. Balet tez bir zamanda ən böyük opera və balet teatrlarının səhnələrində yer alır. Polad Bülbüloğlu bu əsəri ilə balet dünyasına da möhürünü vurur.

2006-cı ildə Polad Bülbüloğlu Azərbaycanın Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilir. Beləliklə də, ona etibar edilən vəzifəni yerinə yetirmək üçün Moskvaya köçür. Səfir işlədiyi müddətdə Polad Bülbüloğlu siyasi aləmdə Qarabağ həqiqətlərini yaymaq, dünyaya eşitdirmək üçün düşünülmüş siyasət yürüdür. Gördüyü işləri də parlaq nəticələnir.

2024-cü ildə Azərbaycanda keçirilən parlament seçkilərində Azərbaycanın zümrüd qaşı olan xarıbülbül məskəni, mədəniyyət mərkəzi Şuşa şəhərinin və digər rayonların seçicilərinin arzusu ilə millət vəkili seçilir.

Dövlət də görkəmli bəstəkarın, muğənninin, artistin, professorun, siyasi və ictimai xadimin, incəsənət ustasının əməyini, zəhmətini, işini diqqətdən yayındırmadan ən ali mükafatlarla qiymətləndirir. Azərbaycanda 2009-cu ilin adamı elan edilir bu böyük şəxsiyyət. Polad Bülbüloğlu Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf» ordenləri ilə təltif olunur. Azərbaycan Respublikasının ən yüksək mükafatı «Heydər Əliyev» ordeni də Polad Bülbüloğlunun sinəsini bəzəyir.

18 may 2016-cı ildə heykəltəraş və rəssam Zurab Seretelinin «Mənim müasirlərim» adlı heykəllər silsiləsi çərçivəsində Moskvada Polad Bülbüloğlunun abidəsinin açılışı olur.

Mən çalışdım Azərbaycanın görkəmli siması Polad Bülbüloğlunun həyat və yaradıcılığını işıqlandıram. Ancaq anladım ki, bunun üçün belə dar zaman kifayət etməz və belə zəngin həyat bir məqaləyə sığmaz. Ona görə də XALQIN sevimli sənətkarı, mədəniyyətimizin parlaq siması Polad Bülbüloğlunun 80 illik yubileyi münasibətilə təbrik edir, can sağlığlı, uzun ömür, siyasi həyatında və yaradıcılığında uğurlar diləyirəm. Polad Bülbüloğlunun 80 illik yubileyini qeyd etsək də, bu yaş onun nə təbəssümündən, nə də yaradıcılığının gəncliyindən heç nə qoparıb ala bilməyib sə, deməli hələ daha geniş yaradıcılıq uğurları qarşıdadır.

Bu məqaləni dolqun yazmaq üçün mənə materialları təqdim etdiyinə görə Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Lətifə Məmmədovaya minnətdarlığını bildirirəm.

***NÜŞABƏ MƏMMƏDLİ,***
**yazıçı, publisist, «Yazıçı Qadınlar Cəmiyyəti» İB-nın sədri, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu.**